# REGIONALARDA GƏNCLƏRIN İCTIMAI FƏALLIĞIN ARTIRILMASI VƏ GƏNCLƏRIN ŞƏBƏKƏLƏŞMƏSINDƏ GƏNCLƏR SIYASƏTININ İMKANLARI

**İsmayıl Kərimov**

**Kontekst və Problemin mənşəyi:** Bu siyasi təhlil sənədinin əsas məqsədi Azərbaycandakı region gənclərinin ictimai fəaliyyətinin hansı vəziyyətdə olmasını müəyyənləşdirərək onların həlli istiqamətində müxtəlif alternativləri müəyyən etməkdir. Şübhəsiz əvvəlcə ictimai fəaliyyəti şərtləndirən amilləri, bu fəaliyyətin başlıca komponentlərini müəyyən edərək problemə daha düzgün qiymət vermək mümkündür. Bir çox hallarda gənclərin ictimai fəaliyyəti daha çox gənclərin idarəetmə orqanlarında, seçkili strukturlarda təmsil edilməsi ilə xarakterizə edilir. Lakin bütün ölkələrdə olduğu kimi ictimai fəaliyyət prosesi fərdi qaydada həyata keçən bir məsələ deyil. Bu baxımdan gənclərin ictimai fəaliyyətin ilk addımları məhz gənclər təşkilatlarından başlayır. Təhlil sənədində araşdırmaların əsas fokusu regionlardakı gənclər təşkilatlarının vəziyyətinin təhlili ilə başlayacaq. Bir çox hallarda yerlədə gənclərin ictimai fəaliyyətin ölçə bilən əsas göstəricilərdən biri də, həmin yerdə gənclər təşkilatlarının sayı və həmin təşkilatlarda birləşən gənclərin saylarıdır. Əslində gənclər təşkilatlarının fəaliyyəti digər parametrlərdən də çox asılıdır. Həmin yerin sosial-iqtisadi göstəriciləri, iqtisadi obyektlərin profili və həcmi, gənclərin təhsil səviyyəsi, yerlərdə ali və orta ixtisas məktəblərinin mövcudluğu, gənclərin şəbəkələşmə vəziyyəti və onların koordinasiya edilməsi, gənclər üçün sosial mərkəzlər və onların idarəedilməsi, gənclər siyasəti ilə məşğul olan kadların bilik və bacarıqları, regiondakı urbanizasiya vəziyyəti kimi parametrlər də həmin yerdə gənclərin təşkilatlanmasına təsir göstərə bilən parametrlərdəndir. Gənclər təşkilatlarının fəaliyyəti daha çox bu parametrlərdəki vəziyyətdən asılı olduğu üçün gənclərin təşkilatlanmasındakı problemləri məhz bu parametrlərdə axtarmaq daha düzgün olardı. Eyni zamanda gənclər təşkilatlarındakı üzvlərin təhsil səviyyəsi və bacarıqları da gənclər təşkilatlarının fəaliyyətinə təsir edən amillərdən biridir. Bu konteksdə gənclər təşkilatlarının fəaliyyəti və onların vəziyyətinin təhlil edilməsi problemlərin mənşəyinin müəyyən edilməsində daha aydın təsəvvür yaradacaq. Lakin bu parametrlərin bəzilərini siyasi təhlil sənədində problemin təsvir edilməsi və alternativlərin qiymətləndirilməsi zamanı daha çox gənclər siyasətinin istiqamətlərindən irəli gələn imkanlar çərçivəsində istifadə edəcəyik. Belə ki, bir çox parametrlər var ki, bunlar sadəcə 2 və 3 qurumun əməkdaşlığı ilə həll edilən məsələ deyil. Araşdırma bu cür parametrlərin istifadəsini istisna edəcək.

Gənclər təşkilatlarının davamlı fəaliyyəti məhz onların maliyyə davamlılığı və maliyyə diversifikasiyası ilə daha çox əlaqələndirilməsi nəzərdə tutulur. Problemlərin müəyyən edilməsində donor təşkilatlarının regionlara qarşı həssaslığı, maliyyə axtarışı sahəsində bacarıqlar və imkanlar da öz rolunu oynayır. Burada maliyyət axtarışı kontekstində tərəflərin reaksiyası sahəsindəki problemləri də öyrənmək çox vacibdir.

Regionlarda gənclərin informasiyaya çıxışının hansı səviyyədə olması da gənclər təşkilatlarının vətəndaş cəmiyyəti sektorunda imkanları qiymətləndirməsinə təsir edən amillərdən biridir. Son dövrlərdə informasiya çıxışı internet vasitəsi ilə daha effektiv işləyir. Bu baxımdan region gənclərinin İKT bacarıqları və regiondakı İKT-nin vəziyyəti gənclərin şəbəkələşmə imkanlarını qiymətləndirmək baxımından əhəmiyyətlidir. Bu amillərin təsiri hər bir regionda çox fərqli təsir dairəsi ola bilər. Məsələn informasiya çıxışı daha çox olan respublika tabeçiliyində olan şəhərlərdə- Gəncə, Sumqayıt , Mingəçevir və bu kimi şəhərlərdə daha yaxşı vəziyyətdə ola bilər ki, bu gənclərin təşkilatlanmasındakı problemlərin yaranmasında çox təsiri olmaya bilər.

Buna görə də bunu bilmək vacibdir ki, vəziyyətə təsir edəcək parametrlər əsasında qəbul edəcəyimiz alternativlərin ayrı ayırılıqda və ya toplu şəkildə tətbiqi hər bir regionda fərqli effektlər və nəticələr verə bilər. Ona görə də, hər bir regionun spesifik mühiti alternativlərə qarşı fərqli həssaslıq nümayiş etdirə bilər. Bundan başqa qəbul edilən alternativlərin xərci hər hansı bir regionun infrastrukturundan və yuxarıda qeyd edilən parametrlərin hansı vəziyyətdə olmasından asılı olaraq dəyişə bilər. Bunun üçün qəbul edilən alternativlər universal dəyərləri ehtiva etdiyinə görə daha çox nəzəri xaraker daşıya bilər və alternativlərin tətbiqində yerli kontekstin qiymətləndirməsi daha vacibdir. Bu parametrlər əsasında qurulacaq “səbəb-əsas məsələ-nəticə” ağacında hər bir parametrin konkret indikatorlarla ayrı ayrı regionlarla ölçülməsi hər bir region üçün fərqli alternativ və ya alternativlərin tətbiqini daha da asanlaşdıracaq.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq problemlərin mənşəyini müəyyən edəcək ağac aşağıdakı şəkildə qurulacaq.

REGİONLARDA GƏNCLƏRİN TƏŞKİLATLANMASINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR ARASINDA BAĞLILIQ (SƏBƏBLƏR-ƏSAS MƏSƏLƏ- NƏTİCƏ)



Yuxarıdakı sxemin aşağı hissələrində yer alan məsələlər gənclər təşkilatlarının inkişafında yaranana problemlərin mənşəyini, ən yuxarı hissəsində yer alan məsələlər isə gənclər təşkilatlarının inkişafının nəticələri kimi qiymətləndirmək mümkündür. Bu bütün regionlarda vəziyyətin təhlili və alternativlərin tətbiqi baxımından universal bir sxemdir. Alternativlərin seçimi isə sxemdə yer alan məsələlərin konkret indikatorlarla qiymətləndirilməsindən sonra seçilməsi daha məqsədəuyğun hesab etmək mümkündür. Sxemin orta hissəsində yer alan məsələlər seçilən alternativin məqsədi kimi xarakterizə etmək mümkündür. Sxemdə qeyd edilən məsələlər konkret indikatorlarla qiymətləndirilməsi regionda hansı alternativin məsələnin daha çox pozitiv nəticə verməsinə imkan yaradacaq.

Araşdırmamızda problemin analizi və alternatvilərin müəyyən edilməsində region təşkilatlarının ümumi vəziyyəti paytaxt təşkilatları ilə müəyyən faktlarla müqayisə ediləcək. Bununla yanaşı təhlil sənədində Sumqayıt şəhərindəki gənclər təşkilatlarının vəziyyətinin təhlilinin daha dərindən aparılması da nəzərdə tutulur.

Problemin təhlilində əsas hədəf gənclər təşkilatlarının vəziyyəti olacaq. Gənclər təşkilatlarının güclü olması onların nə dərəcədə davamlı fəaliyyət göstərməsi ilə ölçülür. Hamıya aydındır ki, davamlı fəaliyyət davamlı maliyyə axınından və maliyyə diversifikasiyasından asılıdır. Bunu ölçmək üçün əsas istifadə olunacaq göstəricilər aşağıdakılar olacaq.

- Təşkilatın maliyyə diversifikasiyası:
- Donor təşkilatlardan əldə edilən gəlirlər b) Üzvlük haqqından əldə edilən gəlirlər c) Sosial müəssisələrdən və təşkilatın sosial fəaliyyətlərindən əldə edilən xalis gəlirlər d) Dövlət sifarişləri və tenderlərdən əldə edilən gəlirlər e) Biznes qurumlarından əldə edilən gəlirlər gəlirlər üzərində bölgü
- Donor təşkilatları üzrə maliyyə diversifikasiyası:

1) Beynəlxalq donor təşkilatları 2) Yerli dövlət qurumları 3) Digər yerli donor təşkilatlarından əldə edilən gəlirlər arasında təxmini bölgü.

Təbii ki, donor təşkilatlarının müxtəlifliyi və gənclər təşkilatlarının çox olması bu təhlilin aparılması üçün xeyli vaxt tələb edir. Eyni zamanda maliyyə vəziyyətini təşkilatların həssas məsələsi olduğu üçün bu cür məlumatların donor və gənclər təşkilatlarından toplanması prosesində müəyyən çətinliklər yaradır. Bu baxımdan araşdırmamızda gənclər təşkilatlarının daha çox istifadə etdiyi və əldə edilməsi mümkün olan, müxtəlif sektorları əhatə edən 3 donor təşkilatın məlumatları əsasında qiymətləndirəcəyik. Bu donor təşkilatları aşağıdakilardır.

- Avropa Gənclər Fondu

- Azərbaycan Respublikası yanında QHT-lərə Dövlət Dəstəyi Şurası
- Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi

Lakin Sumqayıtda fəaliyyət göstərən gənclər təşkilatları haqqqında isə daha ətraflı və müxtəlif parametrlər baxımından təhlil ediləcək.

**Problemin analizi:** Son illərdə Azərbaycanda gənclər təşkilatlarının sayı daha çox artmağa başlayıb. Qeyd etmək lazımdır ki, hal hazırda fəaliyyət ölkədə 180-ə yaxın gənclər təşkilatları fəaliyyət göstərir ki, bunlardan 100-ə yaxın təşkilat son 5 ildə qurulmuşdur. Bununla bərabər bu təşkilatlar inkişaf tempi baxımından heç də hamısı eyni səviyyədə inkişaf edə bilmir. Araşdırmalar göstərir ki, problemin gənclərin maliyyə axtarışları imkanlarının, üzvlərinin bacarıqlarının səviyyəsinin, şəbəkələşmə imkanlarının və informasiya çıxışlarının müxtəlif səviyyədə olmasına görə gənclər təşkilatlarının maliyyə və təşkilati davamlılığı müxtəlif səviyyədədir. Bu məsələdə gənclər təşkilatlarının maliyyə diversifikasiyasını təmin etməsi çox vacib məsələdir. Təəssüf ki, digər inkişaf etmiş ölkələrdən fərqli olaraq Azərbaycandakı gənclər təşkilatları maliyyə diversifikasiyasını təmin etməkdə çətinlik çəkirlər və buna görə də təşkilatların davamlı fəaliyyəti daim risk altında olur. İdeal bir ictimai təşkilatın maliyyələşməsi yuxarıda qeyd edilən bütün mənbələrdən olmalıdır. Çox təəssüf ki, Azərbaycandakı gənclər təşkilatlarının çox az hissəsində maliyyə diversifikasiyası təmin edilmişdir. Biznes qurumları ilə korporativ sosial məsuliyyətdən, üzvlük haqqlarından, eləcə də sosial müəssisələrdən və təşkilatın sosial fəaliyyətlərindən əldə edilən xalis gəlirlər gənclər təşkilatlarının maliyyələşməsində elə ciddi rol oynamır. Buna görə də gənclər təşkilatları donor təşkilatlardan daha çox asılı vəziyyətdədirlər. Maliyyə diversifikasiyasını müəyyən edən əsas göstəricilərdən birisi isə hər hansı bir təşkilatın nə dərəcədə müxtəlif donor təşkilatlarından maliyyələşməsindən asılıdır.

Müşahidələr göstərir ki, Azərbaycanda fəaliyyət göstərən gənclər təşkilatlarının heç birində təsis etdiyi sosial müəssisələrdən gəlir əldə etmək praktikasından istifadə etmirlər. Biznes qurumları ilə korporativ sosial məsuliyyətdən gəlir əldə etmək praktikası isə çox nadir hallarda rast gəlmək mümkündür. Bunun əsas səbəblərindən birisi isə biznes sektorunun ictimai sektora qarşı marağın az olması və biznes sektorunun korporativ sosial məsuliyyət haqqında məlumatlarının az olması ilə əlaqədərdir. Azərbaycanda korporativ sosial məsuliyyət prinsipləri ilə işləyən şirkətlər da çox az saydadır. Bunlar Azercell, Azerfon, BP, HP, Microsoft Azərbaycan və digər bir neçə transmilli şirkətlərin yerli nümayəndələridir. Nəzərə almaq lazımdır ki, bu şirkətlərin korporativ sosial

məsuliyyət məsələsində prioritet istiqamətləri o qədər də geniş deyil. Bu isə biznes sektoru ilə ictimai sektorun əməkdaşlığını zəiflədir. Gənclər təşkilatlarının üzvlük haqqlarından əldə etdikləri gəlirlər isə çox cüzidir. Bu gəlirlər donor təşkilatlarından maliyyələşən gənclər təşkilatlarının gəlirlərinin heç 1%-ni də təşkil etmir. Azərbaycanda gənclər təşkilatlarının diversifikasiyası daha çox donor təşkilatlarının müxtəlifliyində müşahidə etmək mümkündür. 2007-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının qurulması, son dövrlərdə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin qeyri-hökümət gənclər təşkilatlarını maliyyələşdirilməsi maliyyə diversifikasiyasının formalaşmasına əhəmiyyətli töhfə vermişdir. Bununla bərabər Azərbaycanda, xüsusi ilə regiondakı gənclər təşkilatları bu imkanlardan eyni şəkildə faydalana bilmirlər. Burada gənclər təşkilatlarının üzvlərinin bacarıqlarının, informasiya çıxışının və şəbəkələşmənin nisbətən zəif olması onların müxtəlif maliyyələşmə proqramlarından geri qalması ilə nəticələnir. Təəssüf ki, maliyyə müxtəlifliliyi ilə bağlı gənclər təşkilatları və donor təşkilatlarından dəqiq rəqəmlər və faktlar əldə etmək çox çətindir. Bununla bərabər 3 donor təşkilatından əldə edilən məlumatlarla Azərbaycandakı gənclər təşkilatlarının maliyyə diversifikasını analiz edərək müəyyən qanunauyğunluqlar tapmaq mümkündür. Bu donor təşkilatları Avropa Gənclər Fondu, Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyidir. Avropa Gənclər Fondunun 2005-2009-cu illər üzrə maliyyə yardımı haqqındakı hesabatına əsasən müəyyən edilmişdir ki, fond 5 il ərzində Azərbaycanda fəaliyyət göstərən 65 təşkilatın 114 lahiyəsinə 817 550 Avro məbləğində maliyyə ayırmışdır. Bunlardan 50-ə yaxın təşkilat Bakı şəhərində yerləşən təşkilatlardır ki, onların fonddan əldə etdikləri gəlir ümumi respublikadakı təşkilatlara ayrılan məbləğin 79,32%-ni yəni 648 550 avrodur. Bu məbləğdən əldə edilən gəlirin 28,53%-i yəni 185 050 Avro regionlarda həyata keçirilən layihələr üçün ayrılıb. Fonddan isə cəmi 15 regonda yerləşən gənclər təşkilatları yararlanmışdır ki, onların fonddan əldə etdikləri gəlir ümumi məbləğin 20,68% -ni yəni 169 000 Avro təşkil edir. Bu rəqəmlərdən göründüyü kimi fonddan Azərbaycanda fəaliyyət göstərən və xüsusi ilə regionlarda fəaliyyət göstərən bütün gənclər təşkilatları faydalana bilməmişdir. Lakin bu fondla davamlı işləyən təşkilatlar mövcuddur. Fondun 2005-2009-cu illərdə təşkilatların layihə sayının kategoriyasına görə bölgüsü aşağıdakı kimidir.

| s/s | Dövr ərzində (2005-2009-cu illər) layihələrin sayına görə kategoriyalar | Kategoriya üzrə təşkilatların sayı | Kategoriya üzrə əldə edilən ümumi məbləğ | Kategoriya üzrə əldə ediən məbləğin ümumi |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| | | | | məbləğdə payı |
| 1 | Yalnız 1 layihə həyata keçirənlər | 42 | 284550 | 34,80 |
| 2 | 2 layihə həyata keçirənlər | 13 | 197 500 | 24,15% |
| 3 | 3 layihə həyata keçirənlər | 2 | 65500 | 8,01 |
| 4 | 4 layihə həyata keçirənlər | 5 | 128 500 | 15,71% |
| 5 | 4-dən çox layihə həyata keçirənlər | 3 | 141 500 | 17,30 % |

Cədvəldə 2 və daha çox layihəsi maliyyələşən region təşkilatları da mövcuddur. Bunların sayı isə cəmi 5 təşkilatdır. Maraqlıdır ki, fonddan maliyyələşən region təşkilatlarından Gəncə, Sumqayıt şəhərləri və Şəki rayonunda yerləşən təşkilatlar xüsusi fərqlənirlər. Region təşkilatları üçün ayrılan məbləğin 70,71%-i yəni 119 500 Avro məhz bu 3 regionun payına düşür. Təcrübə göstərir ki, hər üç region ətraf rayonlar üçün urbanizasiya mərkəzidir və ətraf rayonların hesabına baş verən urbanizasiya gənclərin şəbəkələşməsini, habelə informasiya çıxışını yaxşılaşdırır və bu da gənclər təşkilatlarının fəaliyyətinə və maliyyələşməsinə öz töhfəsini verir. İkinci bir məqam isə ondan ibarətdir ki, 3 regionun ikisi respublika tabeçiliyində olan şəhərlərdir və gənclərin təhsili üçün ali və orta ixtisas müəssisələri mövcuddur.

İkinci bir donor təşkilatı –Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasınn 2010-cu ildə ayırdığı maliyyə vəsaitlərindən görmək mümkündür ki, Şuradan faydalanan 198 təşkilatdan 35-i gənclər təşkilatlarıdır ki, onlara ayrılan məbləğ ümumi məbləğin 16,92%-ni yəni 195490 manatı məhz bu təşkilatlara ayrılmışdır. Şuranın prioritet istiqamətlərinin nisbətən geniş diapozonda olması və eyni zamanda region təşkilatlarının təşəbbüslərinə xüsusi prioritet ayırması daha Avropa Gənclər Fondu tərəfindən maliyyələşən təşkilatlardan fərqli gənclər təşkilatlarının maliyyələşməsini də təmin etmişdir. Bununla bərabər 35 təşkilatdan 5 təşkilat Avropa Gənclər Fondu tərəfindən əvvəllər maliyyələşmiş təşkilatlardır. Bunlardan biri isə Gəncə şəhərində yerləşən gənclər təşkilatıdır. Gənclər təşkilatları üçün ayrılan vəsaitin 26,34%-i yəni, 51500 manat regionda gənclərin fəaliyyətinin yaxşılaşdırılması üçün ayrılmışdır. Lakin region təşkilatlarına gənclər təşkilatları üçün ayrılan vəsaitin 10,98%-i yəni 21500 manatı ayrılmışdır. Bu vəsaitin 81,39%-i Gəncə və Sumqayıt şəhərinin payına düşür.

Son 1.5 il ərzində Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi də gənclər təşkilatlarının layihələrinin maliyyələşdirilməsi istiqamətindən mühüm addımlar atmışdır. Son 1.5 il ərzində 65 gənclər təşkilatının 95 layihəsinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən 1.341.957,32 manat məbləğində maliyyə vəsaiti xərclənmişdir. Lakin burada bunu da qeyd etmək lazımdır ki, regionda yerləşən gənclər təşkilatlarının maliyyələşmə payı çox aşağıdır. Maliyyə ayrılan 65 təşkilatdan yalnız təşkilat region təşkilatlarını təmsil edir. 95 layihənin 18-i region gənclərinin inkişafı ilə bağlı, 7- layihə isə beynəxalq tədbirləri maliyyələşdirən layihələrdir. Nazirlikdən maliyyələşən 65 təşkilatın 17-i həm də Avropa Gənclər Fondundan maliyyələşən gənclər təşkilatlarıdır. Bunlardan yalnız 2-3 təşkilat region təşkilatlarının payına düşür. Gənclər və İdman Nazirliyinin elan etdiyi elanlarda prioritet istiqamətlər geniş olması müəyyən qədər təşkilatlara imkanlar açmasına baxmayaraq regionda fəaliyyət göstərən gənclər təşkilatlarının sayının az olması, fəaliyyətdə olan təşkilatların da nisbətən zəif olması onların maliyyələşməsinə mənfi təsir göstərir. Bu baxımdan belə bir qənaətə gəlmək mümkündür ki, gənclər təşkilatlarının inkişaf etməsi yerlərdə gənclərin şəbəkələşməsi imkanları, onların bacarıqlarının artırılması istiqamətində qeyri-formal təhsilin inkişafından, informasiya çıxışının hansı səviyyədə təmin olunmasından və digər yuxarıdakı sxemdə sadalanan məsələlərin hansı səviyyədə olmasından çox asılıdır. Bununla yanaşı yerlərdə gənclər üçün təhsil, İKT və sosial müəssisələrinin mövcudluğu və bu məsələdəki potensialın da olması daha vacib məsələlərədən biridir. Bu məsələlərin hansı səviyyədə olması hər bir region üçün fərqli ola bilər.

**Sumqayıtda gənclər təşkilatlarının vəziyyəti:** Sumqayıt şəhərində 31.12.2008-ci il tarixli göstəriciyə görə 303 000 nəfərlik əhalinin 98 626 nəfəri 14-29 yaş qrupunu əhatə edir. Sumqayıt şəhərində 2 ali və 3 orta-ixtisas məktəblərində gənclər təhsil alır. Bu təhsil müəssisələrində gənclərin ictimai-siyasi fəallığını artırmaq məqsədi ilə hər birində tələbə-gənclər təşkilatı yaradılmışdır. Hazırda 12-ə yaxın qeyri hökümət gənclər təşkilatı yaradılmışdır ki, bunlardan 9 təşkilat 2005-2010-cu illərdə yaradılmışdır.

Lakin şəhərdə fəaliyyət göstərən gənclər təşkilatları inkişaf göstəricilərinə görə bir birindən fərqlənir. Qeyri-hökümət gənclər təşkilatları öz inkişaflarına görə tələbə-gənclər təşkilatları və klubların inkişafından xeyli üstündür. Təşkilatların inkişaf səviyyəsi ilə əlaqədər araşdırmalar aşağıdakı göstəricilər üzrə aparılmışdır.

**a. Gənclər Təşkilatları üzvlərinin təlimatlandırılması və bacarıqlarının inkişaf etdirilməsi:** Aparılan araşdırmalar göstərir ki, qeyri-hökümət gənclər təşkilatlarında təmsil olunan gənclərin öz

bacarıqlarını inkişaf etdirmək üçün imkanları daha genişdir. Tələbə gənclər təşkilatları və digər klublara nisbətən qeyri-hökümət gənclər təşkilatları ictimai qurumlarla əlaqələrindən istifadə edərək üzvlərinin müxtəlif təlimlərdə iştirakına şərait yaradır və bu təlimlərdə əldə etdiyi bacarıqları təşkilatın inkişafı üçün tətbiq edə bilir. Lakin Sumqayıtda fəaliyyət göstərən bütün gənclər təşkilatları bu imkanlardan tam yararlana bilmir. Sumqayıtdakı Qeyri hökümət tipli 12 gənclər təşkilatlarından yalnız 5 təşkilat təşkilat üzvlərini müxtəlif təlimlərdə iştirakına şərait yarada bilmişdir. Bu təlimlərdə iştirak edən şəxslər təşkilatın fəal üzvlərinin orta hesabla 30 %-ni təşkil edir. Qalan 7 təşkilatın üzvləri heç bir təlimlərdə iştirak etməmişdir.

**b. Gənclər təşkilatlarının həyata keçirdiyi tədbirlər və layihələr:** Sumqayıtda gənclər təşkilatlarının həyata keçirdiyi tədbirlər və layihələrin sayı təşkilatlar tərəfindən qeyri bərabər paylanılmışdır. Belə ki, bir çox təşkilatlar heç bir tədbir keçirə bilmədiyi halda digər təşkilatlar 1 ildə bir neçə dəfə tədbir və ya layihə keçirtmişdir.

Təşkilatların davamlı inkişafı və maliyyə davamlılığını təminatında donor təşkilatlarının maliyyə dəstəyi daha mühüm rol oynayır. 2005-ci ilə qədər qeyri-hökümət tipli gənclər təşkilatları müxtəlif donor təşkilatlarının hesabına 19 layihə həyata keçirmişdir ki, bunlardan 8 layihə yalnız bir təşkilata məxsusdur. İki təşkilat hər biri 2 layihə, qalan 5 təşkilat isə hər biri 1 layihə həyata keçirmişdir. 2005-2008-ci illərdə isə qeyri-hökümət tipli gənclər təşkilatları müxtəlif donor təşkilatlarının hesabına 14 layihə həyata keçirmişdir ki, bunlardan 9 layihə yalniz 3 təşkilata məxsusdur. Qalan 5 layihəni isə 3 təşkilat həyata keçirmişdir. Şəhərdəki 17 təşkilatdan yalnız 1 təşkilat 2001-ci ildən etibarən davamlı maliyyə inkişafını təmin etmişdir. 2 təşkilat isə ildə yalnız 3-4 ay maliyyə davamlılığını təmin edə bilir. Sumqayıtda fəaliyyət göstərən gənclər təşkilatlarından yalnız 4 təşkilat ofis kiralaya bilib. Qalan təşkilatlar ofis cəhətdən əziyyət çəkirlər.

**c. Gənclər Təşkilatlarında İdarəetmə forması:** Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, gənclər təşkilatlarından yalnız 3 təşkilatda bütün strukturlar- sədr, məclis, idarə heyəti və nəzarət təftiş strukturları formlaşmışdır. Qalan təşkilatlardan 3 təşkilatın idarəetməsində 2-3 nəfər, digərlərində isə idarəetməni yalnız təşkilat sədri həyata keçirir. Bütün bunlardan belə bir nəticəyə gəlmək mümkündür ki, Sumqayıt şəhərində gənclər təşkilatının komanda ilə işləmək bacarıqları aşağı səviyyədədir və bu təşkilatın inkişafına mənfi təsir göstərir.

**d. Təşkilatların beynəlxalq əlaqələri, beynəlxalq mübadilələrdə iştirakı və beynəxalq donor təşkilatları ilə əməkdaşlığı:** Gənclər təşkilatları ilə aparılan araşdırmalardan məlum olmuşdur ki,

şəhərdə yalnız 4 təşkilat beynəlxalq donor təşkilatlarının dəstəyi ilə müxtəlif layihələr həyata keçirmişdir. Bu təşkilatlardan yalnız 1 təşkilat hər il mütəmadi olaraq illik layihə həyata keçirib maliyyə davamlılıqlarını həyata keçirə bilirlər. Təşkilatlar arasında aparılan araşdırmalardan məlum olmuşdur ki, cəmi 8 nəfər Azərbaycandan kənarda mübadilə proqramları, təlim və seminarlarda iştirak ediblər. Gənclər təşkilatlarının xətti ilə Sumqayıtda cəmi 3 beynəlxalq tədbir həyata keçirilmişdir və bu tədbirlər də yalnız 1 təşkilat tərəfindən təşkil edilmişdir.

**e. Təşkilatların lojistik və texniki imkanları:** Sumqayıtda gənclər təşkilatlarından yalnız 4 təşkilatın özünə aid kompüter avadanlıqları və digər İKT imkanları mövcuddur. Gənclər təşkilatlarından yalnız 3 təşkilatın internet səhifəsi daim yenilənir və işlək vəziyyətdədir. Qalan təşkilatların heç birinin internet səhifəsi mövcud deyil.

**f. Sumqayıt təşkilatlarında maliyyə diversifikasiyasının təmini və davamlılıq:** Aparılan araşdırmalardan məlum olmuşdur ki, Sumqayıtda fəaliyyət göstərən gənclər təşkilatları 2005-2010-cu illərdə müxtəlif donor təşkilatları ilə işləmişdir. Soros Fondu, Avrasiya Fondu, Avropa Gənclər Fondu, Gənclər və İdman Nazirliyi, Demokratiyaya Milli Himayə Fondu, ABŞ səfirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası, Sumqayıt şəhər İcra Hakimiyyəti, Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsi, Almaniya Texniki Əməkdaşlıq Cəmiyyəti (GTZ), HP və Microsoft Azərbaycan şirkətləri və digərləri müxtəlif dövrlərdə gənclər təşkilatlarının layihələrini qismən və ya tamamən maliyyələşdirmişdir. Bununla bərabər Sumqayıtda fəaliyyət göstərən gənclər təşkilatlarının say artımı daha çox 2008-2009-cu illərə təsadüf edir. Bu baxımdan Sumqayıt şəhərində 2-3 təşkilatı isitisna etməklə digər təşkilatlar yeni yarandığı üçün daha formalaşma ərəfəsindədirlər. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, Sumqayıtda yalnız 1 təşkilat hər 3 sektor-dövlət, özəl və digər donor təşkilatları ilə maliyyələşməsi təmin olunmuşdur. 1 təşkilat 2 sektor tərəfindən-dövlət və digər donor təşkilatları ilə maliyyələşməsi təmin olunmuşdur. Şəhərdə gənclər siyasəti sahəsində 3 təşkilatın hər birinin 1 layihəsi davamlı, yəni 1 ildən artıq olaraq həyata keçirilir ki, bu təşkilatların davamlı inkişafına müsbət təsir göstərir.

Yuxarıdakı sxemi Sumqayıtdakı gənclər təşkilatlarının inkişafının perpspektivi baxımından qiymətləndirsək deyə bilərik ki, gənclər təşkilatlarının inkişafı üçün ciddi infrastruktiv problemlər mövcud deyil. Şəhərdə gənclərin şəbəkələşməsi üçün 5 ali və orta ixtisas məktəbinin mövcudluğu, eyni zamanda Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən gənclərin şəbəkələşməsi üçün 2008-ci ilin iyun ayından qurulan yahoogrup gənclər təşkilatlarının inkişaf etdirilməsi

baxımından böyük imkanlar yaradır. Gənclərin təhsil səviyyəsi, onların dil bacarıqlarının digər rayonlara nisbətən daha yüksək səviyyədə olması, eyni zamanda beynəlxalq əlaqələri də gənclər təşkilatlarının inkişafına şərait yaradır. Bununla bərabər şəhərdə inzibati binaların azlığı, gənclər üçün resurs mərkəzinin olmaması gənclər təşkilatlarının lojistik imkanlarını məhdudlaşdırır. Hər il Sumqayıt şəhərindən 1500-1800 nəfər ali məktəblərə qəbul olunur ki, bu potensial gənclər təşkilatları üçün vacib elementdir. Sadəcə Sumqayıt şəhərinin ali və orta ixtisas məktəblərində 6000-6500 gənc təhsil alır. Şəhərdə iki yerdə pulsuz internet xidmət mərkəzləri, 1 yerdə pulsuz xarici dil kursları gənclərin bu sahədə bacarıqlarının artırılmasına şərait yaradır. Şəhərdə 50-ə yaxin internet klublarının mövcudluğu, habelə internet qiymətlərinin son dövrlərdə ucuzlaşması gənclərin informasiyaya çıxışını asanlaşdırmışdır. Bütün bunlar Sumqayıtda gənclər təşkilatlarının inkişafı üçün yaxşı imkanlar və potensial vəd edir.

## ALTERNATIVLƏRİN ANALİZİ

Yuxarıda qeyd edilən sxemin regionlarda gənclər təşkilatlarının inkişafı baxımından daha universal bir sxem kimi qəbul etmək mümkündür. Sumqayıtdakı vəziyyətin yuxarıdakı sxem baxımından təhlilindən belə nəticəyə gəlmək mümkündür ki, gənclər təşkilatlarının bacarıqlarının artırılması və gənclər üçün sosial müəssisələrin artırılması amilləri şəhərdə gənclər təşkilatlarının fəaliyyətinin güclənməsinə digər faktorlardan daha çox təsir göstərmək qabiliyyətinə malikdir.

**Qeyri-formal təhsilin İnkişaf etdirilməsi**: Sumqayıtda gənclər təşkilatlarının inkişafı üçün yerli gənclərdə çox güclü motivasiyanın olması ilə yanaşı, ictimai sektorda bacarıqların inkişaf etdirilməsi də çox vacib elementlərdən biridir. Bir çox təşkilatlar ideyalarını həyata keçirmək üçün nədən və ya haradan başlamağı tam dəqiq bilmirlər. Bu baxımdan gənclərin qeyri-formal təhsil sahəsindəki təcrübələri onların bacarıqlarının artırılmasına imkan yaradır. Son iki ili əvvəlki illərlə müqayisə etdikdə bunu müşahidə etmək mümkündür ki, Sumqayıtda qeyri-formal təhsil istiqamətində aparılan işlərin sayı çoxalmışdır. 2010-cu ildə Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə gənclər təşkilatlarının bacarıqlarının artırılması sahəsində layihə həyata keçirilir. Layihə çərçivəsində gənclər təşkilatları üzvlərinin bacarıqlarının artırılması sahəsində keçirilən təlimlər gənclər təşkilatları üçün yeni imkanlar yaradır. Bu sahədə davamlı vəsaitin təmin edilməsi bacarıqların davamlı inkişaf etdirilməsi baxımından vacib məsələdir. Sumqayıtda gənclər təşkilatlarının sayını və üzvlərini nəzərə alsaq müəyyən etmək mümkündür ki, hər il təşkilati bacarıqların inkişaf etdirilməsi üçün 120-150 nəfərin təlim keçməsi zəruridir. Bu isə hər il təxminən 12000-15000 manat vəsait tələb edir. Bu sahədə yerli təlimçi

bazasının yetişdirilməsi müəyyən qədər vəsaitin gələcəkdə qənaət edilməsinə töhfə verəcəkdir. Bu təlimlər aşağıdakı mövzuları əhatə etməlidir:

-layihə dövrünün idarəedilməsi və layihə dizaynı

- İctimai maraqların qorunması (advocacy)

-İctimaiyyətlə əlaqələr

-Fandreyzinq

-QHT idarəçiliyi

- Liderlik

Bununla bərabər bu mövzuda olan təlimləri keçməmişdən əvvəl gənclərin qeyri-formal təhsil metoduna hazırlamaq lazımdır. Bunlar daha qısa müddətli komanda ilə işləmək qabiliyyətlərini artıran təlimlər olmalıdır.

**Gənclər Mərkəzinin qurulması:** 2005-ci ildən etibarən Gənclər və İdman Nazirliyi regionda gənclərin ictimai fəallığını, məşğulluğunu və digər sahələrdə inkişafını təmin etmək məqsədi ilə ölkənin müxtəlif rayonlarında gənclər evinin yaradılması ideyası ilə çıxış etmişdir. Hal hazırkı dövrə qədər ölkənin 5 rayonunda- Lənkəran, Yevlax, Sabirabad, Zaqatala və Abşeron rayonlarında gənclər mərkəzləri tikilib istifadəyə verilmişdir. Bu mərkəzlər yaradılarkən gənclərin bir araya gələrək şəbəkələşməsini nəzərdə tuturdu. Lakin bir çox yerlərdə gənclər evinin saxlanılması və idarəedilməsində müəyyən problemlər yarandı. Gəncləri evinin xərclərinin qarşılanması ucbatından bu mərkəzlərdən bəziləri lazımı istiqamətdə effektiv şəkildə işləyə bilmədi. Bəziləri daha çox ictimai iaşə obyektləri kimi işləməyə başladı. Gənclər evini menecerliyi üçün kifayət qədər kadrların olmaması, eyni zamanda Gənclər Mərkəzindən faydalanacaq fəal maraqlı gənclər şəbəkəsinin əvvəlcə yaradılması həmin gənclər evinin işləməsini təmin edə bilər. Bu baxımdan Sumqayıt şəhərində gənclərin şəbəkələşməsi və potensialı gənclər mərkəzinin yaradılması üçün hazırdır. Gənclər mərkəzi şəhərdə fəaliyyət göstərən gənclər təşkilatlarının ofislərlə təminatını, təlimlər üçün zalları, yeməkxana, internet otağı və digər məsələləri də nəzərə almalıdır. Bütün bunları nəzərə alaraq təxminən 200-250 kv.metrlik bir sahədə iki mərtəbəli bir gənclər mərkəzinin yaradılması şəhərdəki gənclər təşkilatlarının tələbatlarını qarşılaya bilər. Məsələyə bu aspektdən yanaşarsaq bu cür mərkəzin qurulması təxminən 70000-80000 manata başa gəlir. Bununla bərabər gənclər təşkilatlarının çoxluğu, gənclər sahəsində keçirilən layihələrin sayını nəzərə alsaq bunu müəyyən edə bilərik ki, yaradılacaq gənclər mərkəzi özünü maliyyələşdirmə sistemində özünü doğrulda biləcək. Eyni zamanda gənclər mərkəzinin qurulması layihələrin həyata keçirilməsində tələb olunan

məbləğləri daha 20-30% ucuzlaşdıracaq ki, bu da şəhərdəki gənclər təşkilatlarının cəlb edəcəyi maliyyə axının daha da artıracaq.